# KƏSKİN DÖNÜŞ! ERMƏNİ MİFOMANİYASI VƏ HƏQİQƏT

SƏNƏDLƏR











© Erix Fayql
prof.erich.feiql@chello.at
www.monarchie.at

**"Bu günə nəzarət edən keçmişi də nəzarətdə saxlayır. Gələcək keçmişə nəzarət edənindir".**
*Corc Oruel, "1984"*

**Mifomaniya** - patoloji baxımdan yalançılıqla üzvü surətdə bağlı olan psixi xəstəlikdir. Erməni böhtanları bir əsrdən artıq müddətdə yayıldığından və onların "türklərin erməni xalqına qarşı törətdikləri soyqırım" adlandırdıqları uydurma əfsanənin də yaşı artıq 90 ilə çatdığından, bu kinli cəfəngiyyatın qarşısının təkzibedilməz sənədlər və əyani materiallar əsasında cəsarətlə alınmasının vaxtı gəlib çatmışdır.

**Onlar aşağıdakı sənədə istinad edərək "müharibə aparan millət" olduqlarını iddia edirlər:**


Délégation Nationale Arménienne

Monsieur le Ministre,

J'ai l'honneur, au nom de la Délégation Nationale Arménienne, de soumettre à Votre Excellence la déclaration ci-dessous en lui rappelant:

Que les arméniens, dès le début de la guerre, ont été des belligérants de facte, comme vous avez bien voulu le reconnaître vous-même, puisqu'au prix des sacrifices les plus lourds et des souffrances endurées pour leur attachement inébranlable à la cause de l'Entente, ils ont combattu aux côtés des Alliés sur tous les fronts;

En France, par leurs Volontaires enrôlés dès les premiers jours dans la Légion Etrangère, où ils se sont couverts de gloire sous le drapeau Français;

En Palestine et en Syrie, où les Volontaires Arméniens, recrutés par la Délégation Nationale à la demande même du Gouvernement de la République, ont formé plus de la moitié du contingent français et ont pris une grande part à la victoire du Général Allenby, ainsi que ce dernier et leurs Chefs français l'ont officiellement déclaré;

Au Caucase où, sans parler des 150,000 Arméniens dans l'Armée Impériale Russe, plus de 40, 00 de leurs Volontaires ont contribué à la libération d'une partie des vilayets arméniens et où, sous le commandement de leurs Chefs Antranik et Nazarbekoff, ils ont seuls de tous les peuples du

Son Excellence
Monsieur S. Pichon
Ministre des Affaires Etrangères
PARIS.

Veuillez agréer, Monsieur le Ministre, la nouvelle assurance de ma plus haute considération.

Le Président,

**«Cənab Nazir,**

Erməni Milli Nümayəndə Heyəti adından aşağıdakıları xatırladan Bəyanatı Zati-alilərinizin nəzərinə çatdırmağı özümə şərəf bilirəm:

yaxşı bildiyiniz kimi, müharibənin əvvəlindən ermənilər de-fakto vuruşan tərəf olmuşlar, Siz özünüz etiraf etmişdiniz ki, ermənilər Antanta işinə yenilməz sədaqətlərinə görə ağır itkilər vermiş və əzablar çəkmişlər, onlar bütün cəbhələrdə Alyans tərəfində vuruşmuşlar:

Fransada onlar ilk günlərdən Xarici Legiona könüllü qismində daxil olaraq fransız bayrağı altında şöhrət qazanmışlar;

Fələstində və Suriyada Respublika hökumətinin xahişi ilə Milli Nümayəndə Heyəti tərəfindən səfərbər edilmiş erməni könüllüləri fransız qoşun kontingentinin böyük hissəsini təşkil edərək general Allenbinin qazandığı qələbələrdə mühüm rol oynamışlar və bu haqda sonuncu və onların fransalı komandirləri rəsmi bəyanat vermişlər;

Qafqazda Rus İmperiyası Ordusunun tərkibində vuruşan 150.000 ermənidən əlavə, 40.000 nəfər könüllü erməni vilayətlərinin bir qisminin azad olunmasında iştirak etmişlər və yalnız onlar bütün Qafqaz xalqları arasında öz komandirləri Andronikin və Nəzərbəyovun başçılığı altında bolşeviklərin geriyə çəkilməsindən başlayaraq sülh müqaviləsinin imzalanmasına qədər Türk ordularına müqavimət göstərmişlər.»

**Zati-aliləri cənab S. Pişona**
***Xarici İşlər Naziri***
Cənab Nazir, Sizə yüksək ehtiramımı bir daha ifadə etməyə icazə verin.
Sədr: Boqoş Nübar

Artıq bir əsr yarımdır ki, erməni fanatları dünyanı terrora məruz qoyurlar. Bu terror Osmanlı imperiyasında azğınlıq edən və dünya ictimaiyyətini yanlış məlumatlandıran protestant və qriqorian iğtişaşçıları, həmçinin erməni siyasi təşkilatlarının (daşnaklar, qnçakistlər) üzvləri tərəfindən başlanmışdır. Erməni terroru xofundan adamlar yalnız nadir hallarda həqiqəti danışmağa cəsarət edir və belə vəziyyət bu günədək davam etməkdədir. Həmin dövrdə "DAR UL İSLAM" adlı şah əsərini yazmış Mark Sayks erməni fırıldaqlarının ifşaçısı olmuş, həmçinin "LE PETİT JOURNAL" jurnalı real vəziyyət haqqında yazmağa cəsarət tapmışdı.


Le Petit Journal

SUPPLÉMENT ILLUSTRÉ

Huit pages : CINQ centimes

DIMANCHE 24 NOVEMBRE 1895

Supplément illustré du Petit Journal

ÉVÉNEMENTS D'ORIENT

Attaque d'une mosquée par les Arméniens



COPYRIGHT BY UNDERWOOD & UNDERWOOD
ONE OF THE FEW TRIUMPHS OF THE ARMENIANS
The picture shows a successful defense by the Armenians of the city of Van against Turkish besiegers; in a later attack the city fell; it is now occupied by the Russians

No 68. — Insurgés Arméniens combattant dans les tranchées contre les troupes Ottomanes pour faciliter à l'armée russe l'occupation de Van.

1914-cü ildə müharibənin başlaması ilə vəziyyət daha dramatik hal aldı. Osmanlı İmperiyasında yaşayan ermənilər məqsədyönlü şəkildə türklərin arxa cəbhəsi boyunca sabotajlar törətməyə çalışırdılar. Fransada, Rusiyada və bir sıra digər ölkələrdə, həmin dövrdə Beşlər Cəbhəsi Müharibəsinə cəlb edilmiş Türkiyənin əleyhinə çıxış edən erməni könüllülərinin güclü ittifaqları yaradıldı ki, «DE-FAKTO MÜHARİBƏ APARAN MİLLƏT» qismində təqribən minillik bir müddət ərzində özlərinin yaşadıqları və yalnız faydalandıqları torpağa qarşı məkrli, qəddar mübarizəyə başladılar. Ermənilərin rəhbəri olmuş Boqoş Nübarın 1918-ci ildə Parisdə Fransa Xarici İşlər Nazirliyinə ünvanladığı məktub (yuxarıda göstərilmiş sənəd) həqiqi vəziyyətin inkarolunmaz dəlilidir.

**Onlar müharibə aparırdılar!**



Şəkildəki təsvirdə (1915-ci ilin baharı) rusların Vanı ələ keçirməsini asanlaşdırmaq üçün osmanlıların mövqelərinin arxasında ikinci cəbhə açmış və ruslar tərəfindən artilleriya ilə təchiz olunmuş silahlı erməni partizanları göstərilmişdir.




"Underwood & Underwood" öz dövründə ABŞ-ın ən nüfuzlu mətbuat agentliyi idi. Onun şəkilləri bütün dünyada yayımlanır və tam mötəbər mənbə sayılırdı. Erməni qiyamları 1915-ci ilin fevral-mart aylarında başladı. Amerika və Britaniya mətbuatında yayılan çoxsaylı fotoşəkillər osmanlıların cəbhə xəttinin arxasından Vana hücum və «QİSASA HAZIRIQ: QAFQAZDA ERMƏNİ KONTİNGENTİ» şüarı altında erməni könüllü birləşmələrinin nümayişi haqqında həqiqətləri əks etdirirdi. Sual olunur: **"Nəyin qisası?"** Osmanlı ermənilərinin ən mühüm dövlət vəzifələrini tutduqlarına, bütün tikinti və maliyyə işlərinin, həmçinin iqtisadi idxalın onların əllərində cəmləşdiyinə və ya onların azad dini etiqada malik olmalarına, ən yüksək ödənişli məktəbləri idarə etdiklərinə və çoxsaylı imtiyazlardan bəhrələndiklərinə görəmi?

20 iyul 1915-ci il tarixli "Yeniyetmə Ermənistan"dan götürülmüş şəkildə qnçak könüllüləri dəstəsi təsvir olunmuşdur.





Van yaxınlığındakı Sevdə abidə. Daş sütun arxasındakı torpaq çuxurunda paramilitarist ermənilərin zorakı idarəçiliyinin mövcud olduğu qısa müddətdə öldürülmüş 6.000 müsəlman, türk və kürd qurbanları uyuyur. Türkiyənin bütün şərqində faciəvi 1915-ci ilin baharında ermənilər tərəfindən öldürülmüş əliyalın, müdafiəsiz insanların xatirəsinə ucaldılmış abidələr olmayan yer çətin tapılar.

**“Ermənilərin soyqırımı məhkəmə qarşısında. Tələt Paşanın prosesi”** kitabı oxucunu gerçəklikdən yayındıran, təhrikçilərin emalatxanasında ustalıqla uydurulmuş tipik yalandır. Kitabın üz qabığı üzərində erməni terrorçusu tərəfindən Berlində qətlə yetirilmiş Tələt Paşa və qeyri-iradi olaraq 1915-ci il hadisələrinin qurbanları haqqında təsəvvür yaradan kəllə sümükləri yığını təsvir olunmuşdur.

Əvvəldən qarşıya məqsəd qoyulduğu kimi yalan və saxtakarlıq baş tutmuşdur. Əsl həqiqətdə isə söhbət Prussiya ilə Fransa arasındakı müharibəyə həsr olunmuş və **1871-ci ildə (!!)** Vasiliy Vereşagin tərəfindən çəkilmiş “Müharibənin apofeozu” (Tretyakov Qalereyası, Moskva) rəsm əsərindən gedir.






FAKTLARI TAMAMİLƏ YANLIŞ VƏ TƏHRİF OLUNMUŞ TƏRZDƏ ƏKS ETDİRƏN "MUSA DAĞININ QIRX GÜNÜ" ROMANI ARTIQ ÇOXDAN ÖZÜNÜN BÜTÜN PLANET BOYU ZƏFƏR YÜRÜŞÜNƏ BAŞLAMIŞ VƏ "MƏNFUR TÜRKLƏRİN" PORTRETİNİ FORMALAŞDIRMIŞDIR. LAKİN, BURADA ROMANIN MÜƏLLİFİ OLAN AVSTRİYANIN BÖYÜK ŞAİRİ FRANS VERFELİN HEÇ BİR GÜNAHI YOXDUR. O, YALNIZ SAXTA SƏNƏDLƏRİ ONA TƏQDİM ETMİŞ KƏLƏKBAZ VƏ ŞARLATAN ERMƏNİ BANDASININ QURBANI OLMUŞDUR.

BU GÜN DƏ DAVAM EDƏN DÜNYA MİQYASLI BU SAXTAKARLIĞIN VƏ YALANIN PƏRDƏARXASI RƏHBƏRLƏRİ – BÜTÜN KİTABI GUYA Kİ, GƏNC TÜRKLƏR TƏRƏFİNDƏN VERİLMİŞ UYDURMA QƏTL ƏMRLƏRİLƏ HƏDDƏN ARTIQ BOYAYAN ARAM ANDONYAN, FIRILDAQLARININ ÜSTÜ YALNIZ BU YAXINLARDA AÇILMIŞ HİYLƏGƏR VƏ SAXTAKAR PASTOR YOHANNES LEPSİUS, ELƏCƏ DƏ ABŞ-ın SABİQ SƏFİRİ MORGENTAUDUR. ERMƏNİ MİLLƏTİNDƏN OLAN HƏMKARLARI VƏ ETİBARLI ŞƏXSLƏR İLƏ TAM ƏHATƏ OLUNMUŞ MORGENTAU KOR-KORANƏ ONLARIN PIÇILTILARINA İNANIRDI, ÜMİDVARIQ Kİ, KOR-KORANƏ İNANIRDI, ƏKS HALDA O, ERMƏNİ TERRORUNUN ƏSAS GÜNAHKARLARINDAN BİRİ OLARDI.

<u>VERFELİN ROMANI NƏ QƏDƏR ƏZƏMƏTLİ GÖRÜNSƏ BELƏ, ONUN HƏQİQƏTLƏ HEÇ BİR ƏLAQƏSİ YOXDUR!</u>

**"Gerçək və cəlbedici novella?" Bəli, "*cəlbedicidir*", lakin "*gerçək*" deyil!**

Hazırda “40 gün” ABŞ-da və ingilisdilli məkanda **erotik və kriminal detektiv** kimi geniş tirajla satılır və hər yerdə öz oxucusunu tapır. **Lakin, oxuculara çətin məlum olsun ki, Verfelin kitabdakı səhvlərini aydın sənədləşdirmiş bütün mühüm məqamlar gizlicə silinib kitabdan çıxarılır, misal üçün Van üsyanı barədə epizod ki, fransız dilində çıxan nəşrə də aiddir.** Kitabın yeni nəşrlərində edilən manipulyasiyaların arxasında durmuş mafiya bu işi hansı məqsədlə yerinə yetirdiyini yaxşı bilir.

Kitabın üz qabığındakı zahiri effekt üçün nəzərdə tutulmuş səhvləri düzəltmək bir o qədər də çətin deyildir:

1. Musa Dağı vulkanik törəmə deyildir, o, daha çox sakit, düz yamaclı dağ landşaftını xatırladır. Nə orada, nə də Osmanlı İmperiyasının hər hansı digər yerində heç kim köçkünləri qırmanclamamışdır. Belə hərəkətlər türk qanunvericiliyi ilə ciddi cəzalandırılırdı. Qiyamçıların sahildə guya ki, ağ mələfələrlə köməyə çağırmaları haqqında əhvalat da gülməlidir («Xristianlar fəlakətdə»). «Qiymətli yükü» təhlükəsiz yerə çatdırmaq üçün fransız donanma birləşmələrinin zirehli kreyser və nəqliyyat gəmiləri çoxdan sahildən ayrılmışdılar, çünki söhbət Süveyş cəbhəsi uçün lazımlı minlərlə fanatik və potensial mübarizlərdən gedirdi!
2. Daha sonra hadisələr belə cərəyan etmişdir: Musa Dağının «qəhrəmanları» britaniyalıların və fransızların Kipr və Misirdəki düşərgələrində hərbi hazırlıq keçmiş, döyüşlərdə iştirak etmək üçün qısa müddətə Suriyaya gəlmişlər. Lakin, Antanta dövlətlərinin verdiyi səlahiyyətlərdən dözülməz dərəcədə sui-istifadə etdikləri səbəbindən, onlar tezliklə cəbhə xəttindən çıxarılmışlar. Buna bənzər vəziyyət rus cəbhəsində də baş vermiş və buna görə də çar komandanlığı get-gedə onlardan uzaqlaşmışdır.





Parisin Tarix Muzeyində (Musee d’Histoire Contemporaine) Musa Dağı “qurbanlarına” fransızların və britaniyalıların cəbhə döyüşlərinə cəlb edilməsi məqsədilə hərbi təlim verdikləri əks olunmuş fotoşəkillər vardır. Bu şəkillər sistematik surətdə arxivləri “arzuolunmaz” sənədlərdən “təmizləmiş” saxtakar erməni nümayəndələrinin nəzərindən qaçmışdır.




Fotoşəkildəki DESAİX zirehli gəmisi o dövrdə Osmanlı İmperiyasının ən zəif yeri olan Anadolu ilə Suriya arasındakı ərazidə keşik çəkən donanmanın flaqman gəmisi olmuşdur. Burada ermənilərin məqsədi (Vandakı kimi) Antanta ordularının hücumunu asanlaşdırmaq üçün arxadan türk cəbhəsini yarmaq idi.

Burada gəmiləri heç də ağ mələfələrlə deyil, o dövrün ən müasir radiocihazları ilə çağırırdılar.




Müharibə bitdikdən sonra erməni saxtakarları Corc Oruellin «Həqiqət Nazirliyi» əks olunmuş «1984»nə valeh olaraq tarixin təhrif edilməsinə başladılar. Heç vaxt mövcud olmamış "qətl əmrlərini" uydurmuş Aram Andonyanın saxtakalığı o dövr üçün xarakterikdir. Bu saxtakarlıqları Sinasi Orel və Sureyye Yuca özlərinin **«Tələt Paşanın teleqramları».** kitabında ifşa edə bildilər. **«Saxtalaşdırılmışdır»!**


ARAM ANDONIAN

DOCUMENTS OFFICIELS
concernant les
MASSACRES ARMÉNIENS

Reproduction photographique d'un grand nombre de Documents.

TRADUIT DU MANUSCRIT ARMÉNIEN, AVEC L'AUTORISATION DE L'AUTEUR, PAR
M. S. DAVID-BEG

PARIS
IMPRIMERIE TURABIAN
217, BOUL^D RASPAIL
1920

1002



Aram Andonyanın saxtalaşdırdığı 18 fevral 1331-ci il (2 mart 1916-cı il) tarixli məktublarından birini nəzərdən keçirək. Məktub heç bir müsəlmanın yazmadığı üslubda yazılmış “Bismillah” ifadəsi ilə başlayır. Lakin, Aram Andonyan məktubun tarixini saxtalaşdırarkən öz iradəsindən asılı olmayan digər labüd səhvə yol vermişdir. Belə ki, tarixlərin Rumi Osmanlı təqvimi üzrə hesablanma qaydalarından məlumatsız olan Andonyan Rumi və xristian təqvimləri arasındakı 13 günlük fərqin aradan qaldırılması (fevral 1917) qaydasını bilmədiyindən, məktubda bir il gec tarix, yəni 1330-cu il (1916-cı il) əvəzinə 1331-ci il tarixini göstərmişdir. Baxmayaraq ki, məktubun məzmunu ermənilərin əvvəlcədən planlaşdırılmış köçürülməsi aksiyasını “sübut” etməyə hesablanmış tərzdə tərtib olunmuşdur…lakin, hər halda mənbə doqquz ay (!) hadisənin tarixini saxtalaşdırmışdır.



12 oktyabr 1915-ci il tarixili 537 saylı daha bir sənəd. A.Andonyan Daxili İşlər naziri Tələtə məruzə edir: “Bizə məlum olmuşdur ki, bəzi adamlar, o cümlədən məmurlar erməni qızları ilə evlənirlər. Biz bunu qəti qadağan edirik və təkidlə tövsiyə edirik ki, bu adamlar müəyyənləşdirilib səhraya sürgün olunsunlar”.

Bəs ölənlərin həqiqi sayı? Parisdə qaçqınların işləri üzrə erməni nümayəndəliyinin həmin dövrdəki başçısı Boqoş Nübar tərəfindən tərtib olunmuş təkzibedilməz sənəd mövcuddur:


Paris le II Décembre 1918

SOUS-DIRECTION D'ASIE
11 DEC 1918

Mon Cher Ministre,

Ainsi que vous m'en avez exprimé le désir, j'ai l'honneur de vous donner ci-dessous une évaluation approximative que nous avons des déportés et réfugiés arméniens de Turquie, qui sont dans un complet dénûment et ont besoin d'être secourus d'urgence.

Il s'en trouve environ 250.000 au Caucase
40.000 en Perse
80.000 en Syrie-Palestine
20.000 à Mossoul-Bagdad
Total 390.000

Le nombre total des déportés a été évalué de 6 à 700.000 âmes. Les chiffres que je vous donne ne sont donc que ceux des rescapés se trouvant actuellement en territoire conquis par les troupes alliées. Quant au reste des déportés disséminés encore dans les déserts nous n'avons jusqu'ici aucun renseignement à leur sujet.

Veuillez agréer, Mon Cher Ministre, l'assurance de ma haute considération et de mes sentiments dévoués.

Ministre Plénipotentiaire
Ministère des Affaires Etrangères
PARIS.

Lettre envoyée par M. Bogos NUBAR, Représentant des Arméniens en France, au Ministère des Affaires Etrangères (Archives des Affaires Etrangères de France, Série Levant, Arménie, vol 2, folio 47).

Əziz Nazir,

İstəyinizi bildirdiyinizə görə, təcili köməyə ehtiyacları olan Türkiyədən gəlmiş erməni qaçqınları və köçkünlərinin təqribi sayı barədə məlumatları Sizə yazmağı özümə şərəf bilirəm.

Onların yerləşdikləri ərazilərdə təqribi sayı aşağıdakılardır:

250 000 Qafqazda,
40 000 Persiyada,
80 000 Suriya və Fələstində,
20 000 Mosulda və Bağdadda
Cəmi: 390 000

Deportasiya olunmuşların ümumi sayı 600-700 min nəfər civarında dəyərləndirilir. Mənim Sizə yazdığım rəqəmlər hazırda Alyansın fəth etdiyi yeni ərazilərdə yaşayan sağ qalmış ermənilərin sayını əks etdirir. Qalanları isə səhralıq torpaqlara yayıldıqlarından, biz onlar haqqında dəqiq məlumat verə bilmirik.

Əziz Nazir, mənim ən xoş arzularımı qəbul edin.
Cənab Quva
Səlahiyyətli Nazir
Xarici İşlər Nazirliyi

Məktub Xarici İşlər Nazirliyinə ermənilərin Fransadakı nümayəndəsi Boqoş Nübar tərəfindən göndərilmişdir.

(Fransa Xarici İşlər Nazirliyinin Arxivi, Yaxın Şərq Bölməsi, «Ermənistan», cild 2, səh.47).

Bu sənəddə birmənalı şəkildə göstərilir ki, köçürülmüş ermənilər arasında ölənlər 300.000 nəfər olduğu halda, həmin Vətəndaş müharibəsi dövründə müsəlmanların (türklər, kürdlər, çərkəzlər) insan tələfatı 500.000 nəfər olmuşdur. Belə göstəricilər sadəcə olaraq unudulur, bu haqda heç kim yazmır və danışmır. Belə ki, bir erməni yepiskopunun dediyi kimi onlar yalnız “heç nəyə yararsız türklərdir”.

## FAKTLAR

Dünyanın ən məşhur demoqraflarından biri, Luisvill Universitetinin (ABŞ) professoru Castin MakKarti "**Müsəlmanlar və milli azlıqlar** – **Osmanlı Anadolusunun əhalisi və imperiyanın süqutu**" adlı təkzibolunmaz nəşrini dərc etmiş, sonradan öz tədqiqatlarının nəticələrini cədvəllər şəklində tərtib etmişdir. Bu göstəricilər fonunda erməni fanatlarının və onların ABŞ-dakı protestant təhrikçilərinin protestant erməni dövlətini HARADA və NECƏ qurmaq istədikləri sualı öz-özlüyündə əhəmiyyətini dərhal itirir.

**Cədvəl 2. Osmanlı İmperiyasının erməni əhalisi, 1912-ci il**

| | Erməni əhalisi | Ümumi əhali | Ermənilər faizlə |
|---|---|---|---|
| **Avropa** | | | |
| İstanbul | 162 132 | 1 032 839 | 8,8 |
| Ədirnə | 33 650 | 1 426 632 | 2,4 |
| Soloniki | 87 | 1 347 915 | * |
| Yanya | 0 | 560 835 | * |
| Monastır | 9 | 1 064 789 | * |
| İskodra | 0 | 349 455 | * |
| Kosovo | 0 | 1 602 949 | * |
| Əlcəzair | 140 | 359 474 | * |
| **Qərbi Anadolu** | | | |
| Xudavəndigar | 97 616 | 1 919 789 | 5,1 |
| Aydın | 25 059 | 2 194 419 | 1,1 |
| İzmit | 69 225 | 389 490 | 17,8 |
| Biqa | 2 805 | 183 077 | 1,5 |
| **Şimali Anadolu** | | | |
| Kastamonu | 13 702 | 1 350 390 | 1,0 |
| Trabzon | 68 326 | 1 505 490 | 4,5 |
| **Mərkəzi Anadolu** | | | |
| Sivas | 182 912 | 1 472 838 | 12,4 |
| Ankara | 125 616 | 1 444 139 | 8,7 |
| Konya | 24 856 | 1 690 388 | 1,5 |
| **Cənubi Anadolu** | | | |
| Adana | 74 930 | 666 578 | 11,2 |
| Xaleb | 123 129 | 1 189 678 | 10,3 |

| | Erməni əhalisi | Ümumi əhali | Ermənilər faizlə |
|---|---|---|---|
| **Şərqi Anadolu** | | | |
| Bitlis | 191 156 | 611 391 | 31,3 |
| Məmurətuləziz | 111 043 | 680 241 | 16,3 |
| Diyarbakır | 89 131 | 754 451 | 11,8 |
| Van | 130 500 | 509 797 | 15,6 |
| Ərzurum | 163 218 | 974 196 | 16,8 |
| **Suriya** | | | |
| Suriya | 1 768 | 1 017 322 | 2 |
| Beyrut | 4 010 | 979 702 | 4 |
| Cəbəlilübnan | 6 | 235 169 | * |
| Qüdsişərif | 2 340 | 352 813 | 7 |
| Zor | 283 | 83 120 | 3 |
| **İraq** | | | |
| Mosul | 100 | 850 000 | * |
| Bağdad | 500 | 1 400 000 | * |
| Bəsrə | 50 | 1 200 000 | * |
| **Ərəbistan** | | | |
| Hicaz | 0 | 2 500 000 | * |
| Yəmən | 0 | 5 000 000 | * |
| İmperiya | 1 698 301 | 38 899 366 | 4,4 |




Anadolu əhalisinin dini mənsubiyyətlərinə uyğun olaraq faizlə göstərildiyi Osmanlı İmperiyasının xəritəsi əlavə edilir. Osmanlı İmperiyasında "milli" və yaxud hətta "irqi" ayrı-seçkilik aparılmırdı.




Osmanlı İmperiyasının xristian əhalisi, əsasən yunanlardan və ermənilərdən ibarət idi ki, MakKarti tərəfindən bu xəritədə Tukay Ataovun (Anqara, 2001) "Ermənilər sonrakı Ottoman dövründə" əsərindən götürülmüş rəqəmlərlə qrafik surətdə əks olunmuşdur.

Bir çox hallarda "Altı vilayət" adı ilə (altı inzibati vahid - Osmanlı İmperiyasının şərq əyalətləri) qeyd olunan Anadolu xəritəsi birmənalı təsdiq edir ki, "protestant" erməni dövlətinin yaradılması əlçatmaz xülya olmuşdur, baxmayaraq ki, bütün müsəlman əhalisinin köçürülməsi əvvəlcədən planlaşdırılmışdı. Bizim günlərdə ölkənin qərbində azərbaycanlıların öz torpaqlarından qovulması zamanı bu siyasət dramatik miqyasda həyata keçirilmişdir.

Guya ki, əsasən ermənilərin məskunlaşdığı "Altı vilayət" ifadəsi çaxnaşmalarda, terrorda və müharibədə maraqlı olan dairələrin uydurduqları standart ifadələrdəndir. C.MakKarti, həmçinin hazırda təşəkkül tapmış həqiqi məqamları üzə çıxararaq bildirir ki, "Ermənistan" və "erməni" sözlərinin anlayışında böyük yanlışlıq vardır: Ermənistan – məsələn, Amerika kimi coğrafi anlayışdır: braziliyalılar, mayya və eskimoslar ABŞ vətəndaşları kimi amerikalılardır. Bu eynilə türklər, kürdlər, gürcülər və digər kiçik etnik qruplar, o cümlədən "hayklar" yaşayan Ermənistana da aiddir (ermənilər özlərini «hayk», Anadolunun şərqində yerləşən respublikanı "Hayastan" adlandırırlar).

"Altı vilayət"in əhalisi barədə manipulyasiyanın klassik nümunəsi: Birinci Dünya Müharibəsindən sonra Parisdə Antanta dövlətləri qarşısında hesabat verən erməni parlamentariləri "erməni patriarxının statistikasını" təqdim etmişdilər. Bu statistikaya görə, 1 018 000 nəfər hayk, həmçinin 165 000 digər xristianlar yalnız 666 000 türklərə, qalanları isə çərkəzlər, lazlar, kürd nomadları, oturaq kürd xalqları və s. kimi göstərilən, ümumi sayı 1 432 000 nəfər olan müsəlmanlara qarşı qoyulur ki, bu da "sənədi" başdan-başa iftiraya çevirir. Belə ki, Osmanlı İmperiyasında əhalinin, yuxarıda qeyd olunduğu kimi, heç vaxt milli mənsubiyyətinə görə siyahıya alınması aparılmamış, yalnız dini mənsubiyyəti qeyd edilmişdir.

Osmanlı statistikasına görə, ümumi əhalinin 784 917 nəfərini (19%) ermənilər, 176 845 nəfərini (4%) digər xristianlar, 3 173 918 nəfərini (77%) müsəlmanlar təşkil edirdi.

**Cədvəl 5. Sağ qalmış ermənilər**

| Sağ qalmış erməni mühacirləri | Sayı | Sağ qalmış erməni mühacirləri | Sayı |
|---|---|---|---|
| SSRİ | 400000 | Suriya | 100000 |
| Yunanıstan | 45000 | Livan | 50000 |
| Fransa | 30000 | İraq | 25000 |
| Bolqarıstan | 20000 | Fələstin/İordaniya | 10000 |
| Kipr | 2500 | Misir | 40000 |
| Digər Avropa ölk. * | 2000 | İran | 50000 |
| Şimali Amerika | 35380 | Digərləri + | 1000 |

**Qaçqınların ümumi sayı 810000**
**Türkiyədə qalanlar 70000**
**Cəmi: 880000**

* Avstriya, Çexoslovakiya, Macarıstan, Yuqoslaviya, İsveçrə, İtaliya, Böyük Britaniya.

\+ Yaponiya, Çin, Hindistan, Latın Amerikası.

(Mənbə: C.MakKarti, «**Müsəlmanlar və milli azlıqlar - Osmanlı Anadolusunun əhalisi və imperiyanın süqutu**»).

## BU GÜN "1915-Cİ İL" TÜSTÜ PƏRDƏSİ ARXASINDA TÜRKİYƏYƏ VƏ AZƏRBAYCANA QARŞI ERMƏNİ YÜRÜŞLƏRİ İLƏ YANAŞI, ERMƏNİLƏRİN 1989-CU İL İŞĞALÇI MÜHARİBƏSİ VƏ ONUN FACİƏLİ NƏTİCƏLƏRİ GİZLƏNİR

### Ermənilər tərəfindən işğal olunmuş Azərbaycan əraziləri

*Dağlıq Qarabağ regionu*

| | |
|---|---|
| Sahəsi | 4 388 km² |
| Əhalisi (1989) | 189 085 |
| Ermənilər | 145 450 (76,9%) |
| Azərbaycanlılar | 40 688 (21,5%) |
| Ruslar | 1922 (1%) |
| Digərləri | 1025 (0.6%) |




## *Şuşa rayonu*

| | |
|---|---|
| Sahəsi -ci il | 289 km² |
| Əhalisi (1989) | 20 579 |
| Azərbaycanlılar | 19 036 (92,5%) |
| Ermənilər | 1 377 (6,7%) |
| İşğal edilmişdir | 8 May 1992-ci il. |

## *Dağlıq Qarabağdan kənar ərazilər*

| **Rayonlar** | **İşğal edildiyi tarix** | **Əhalisi** |
|---|---|---|
| Laçın | 18 may 1992-ci il | 71000 |
| Kəlbəcər | 2 aprel 1993-cü il | 74000 |
| Ağdam | 23 iyul 1993-cü il | 165600 |
| Fizuli | 23 iyul 1993-cü il | 146000 |
| Cəbrayıl | 26 avqust 1993-cü il | 66000 |
| Qubadlı | 31 avqust 1993-cü il | 37900 |
| Zəngilan | 28 oktyabr 1993-cü il | 39500 |

## *Erməni təjavüzünün qurbanları*

| | | |
|---|---|---|
| Həlak olanlar 20 000 | Yaralananlar 50 000 | İtkin düşənlər 4 866 |

***Dağıntılar və dəymiş ziyan***

| | |
|---|---|
| Yaşayış məntəqələri | 890 |
| Evlər | 150 000 |
| İctimai binalar | 7 000 |
| Məktəblər | 693 |
| Uşaq bağçaları | 855 |
| Xəstəxanalar, sağlamlıq mərkəzləri | 695 |
| Kitabxanalar | 927 |
| İbadət evləri (müxtəlif dinlərə məxsus) | 44 |
| Məscidlər | 9 |
| Tarixi yerlər | 9 |
| Tarixi abidələr və muzeylər | 464 |
| Muzey eksponatları | 40 000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | 6 000 |
| Küçələr | 800 km |
| Körpülər | 160 |
| Su kəməri xətləri | 2 300 km |
| Qaz kəməri xətləri | 2 000 km |
| Elektrik enerjisi xətləri | 15 000 km |
| Meşələr | 280 000 ha |
| Əkin sahələri | 1 000 000 ha |
| Su təchizatı sistemləri | 1 200 km |

***Ümumi zərər 60 milyard ABŞ dolları təşkil edir.***

Azərbaycanın şair və bəstəkarlarının cəbhədə əks-hücumlar zamanı rast gəlinən eybəcər hala salınmış abidələri dəhşətli mənzərə yaradır. Heykəllərin sifətləri elə dağıdılmışdır ki, sanki əsgərlər qəsb etdikləri vilayətlərin əsil simasına xas olan hər şeyi silmək istəmişlər.

Bütün dünyaya məlum olan və ümumi nifrətə layiq hadisə – öz qəddarlığı ilə yalnız Hitler və ya Stalin erasının aksiyaları ilə müqayisə oluna bilən, təkcə əhalinin öz torpaqlarından qovulması ilə deyil, həmçinin günahsız insanların kütləvi qırğını ilə nəticələnən Azərbaycanın kiçik şəhəri Xocalının dağıdılması olmuşdur.






Military airfield. Tanks are in a square
GUBADLY

Süni peykdən çəkilmiş şəkildə ermənilərin işğal etdikləri Azərbaycanın cənubunda, Naxçıvan yaxınlığında yerləşən Qubadlı şəhəri görünür. Burada böyük hərbi tikililər, tanklar, həmçinin hərbi aerodrom aydın görünür. 2005-ci ilin mart ayında Qarabağ və digər işğal olunmuş ərazilərdə olan ATƏT-in nümayəndə heyətinin üzvləri ermənilər tərəfindən tamamilə boşaldılmış Azərbaycan kəndləri, mülkləri və yaşayış məntəqələrinin dəhşətli mənzərəsinin şahidi olmuşlar. Söhbət Azərbaycana aid hər şeyin kökündən məhv edilməsi cəhdindən və həm həqiqi, həm də məcazi mənada qəsbkarlıq müharibəsinin bütün izlərinin silinməsindən gedir.

Yüz il keçdikdən sonra hələ də Azərbaycan o vaxt çar Rusiyasının himayəsi altında ilk dəfə açıq şəkildə Bakıda hakimiyyəti zəbt etmək və beləliklə, Azərbaycan neftini ələ keçirmək istəyən ermənilərin 1905-ci il hücumunun minlərlə qurbanlarını xatırlayır. Sonda rusların da narahatçılığına səbəb olmuş və onlar tərəfindən son qoyulmuş bu qırğının həmin dövrdə çəkilmiş fotoşəkilləri erməni təcavüzünün miqyaslarının şahididir.




Daha bir fotoşəkil işğalçıların təchizatını göstərir. Azərbaycan ərazisi ilə təcavüzkar qüvvələrə qeyri-qanuni silah-sursat, həmçinin işğal olunmuş ərazilərdə sayı durmadan artan yeni məskunlaşdırılanları daşıyan və sonu görünməyən erməni yuk maşınları karvanı uzanır.



Sonra ermənilərin 1905-ci ildə Şuşada törətdikləri vəhşilikləri göstərən tarixi fotoşəkil gəlir. Bu əməllər təcavüzün ilk kulminasiya qığılcımı idi.



1905-ci il hadisələri bütün Azərbaycanı işğal etmək cəhdinin yalnız müqəddiməsi idi. 13 il sonra Bakıda ermənilərin törətdikləri dağıntılardan sonra çəkilmiş şəkillər bunu sübuta yetirir.

1918-ci ilin martında bütün olaylar yenidən, lakin daha "yüksək" səviyyədə təkrar edildi: erməni qoşunları Bakıya soxuldular və burada şəhərin yeni ağaları kimi qaldılar. Ermənilərin bu işğalçılıq yürüşləri nəticəsində 20 000 azərbaycanlı həyatını itirdi və yerli əhali öz məskənlərindən qovuldu.





1918-ci il Azərbaycan hadisələri haqqında Osmanlı İmperiyasında Avstriya-Macar hökumətinin üzvü olmuş qraf Trautmansdorffun dramatik hesabatı (o dövrdə xarici dillərin söz dövriyyəsində azərbaycanlıları "tatar" adlandırırdılar. Bu anlayış xalqı kiçiltmək məqsədilə süni surətdə ortaya atılmışdı, axı tatarlar, yüksək və özünəməxsus mədəniyyətə və əsrlər boyu ruslara müqavimət göstərmələrinə baxmayaraq, aşağı çeşidli xalq sayılırdılar).

**Vyanadakı Dövlət arxivindən götürülmüş sənəddə bildirilir:**



6059

Beilage zu NA.Nr. 14.159 v.1918.

Am 21./3. wurde von den Bolschewiken an die Tataren ein Ultimatum gestellt, alle Waffen bis 5 Uhr nachm. abzuliefern und die Sowjetregierung anzuerkennen. Die Armenier verhielten sich neutral. Dieselben sandten auch einen Bevollmächtigten zu den Tataren, wo sie ganz genau erklärten, dass sie mit den Bolschewiken nicht halten werden.

Trotzdem haben sich die Armenier mit den Bolschewiken am 31./3. abends vereinigt und sind gegen die Tataren vorgegangen. Der Angriff kam ganz unerwartet. Die Tataren hatten 5 Maschinengewehre, gar keine Geschütze; die Bolschewiken und Armenier 12 Geschütze, ausser den Schiffsgeschützen.

Reguläre tatarische Truppen waren 400 – 500 Mann, während von den Armeniern bereits seit Jänner ein ganzes Regiment und von den Bolschewiken 1 ½ Regimenter standen. Die mangelhafte Organisation und Führung der türkischen Offze trug zum Misserfolg auch viel bei. Ausserdem hat es sich jetzt furchtbar gerächt, dass die Tataren für die Aufstellung der Truppen kein Geld opfern wollten.

Die Metzelei fing am 31./3. an und hörte erst am 3./4 auf. Ungefähr 12,000 Tote. Häuser wurden teils angezündet, teils infolge des Geschützfeuers vernichtet.

Das Gebäude "Jsmail", ein Prachtwerk, ist ganz zerstört. Wer sich von den besseren Tataren nicht flüchten konnte, wurde in eigener Wohnung von den Armeniern ermordet. Die Armenier sollen mohamedanischen Weibern die Bäuche aufgeschnitten haben. Auch ganz kleine Kinder wurden nicht geschont. Wegen dieser Greueltaten ist eine gewisse Entfremdung zwischen Bolschewiken (Russen) und Armeniern zu merken.

Ich hatte nur wenig Gelegenheit, mit intelligenten Tataren zu sprechen, weil sich fast alle geflüchtet haben. Teilweise auch nach Tiflis.

Derzeit ist Baku fast vollkommen abgesperrt von der Aussenwelt.

Bolşeviklər martın 21-də günortadan sonra saat 5-ə qədər tatarlara bütün silahlarını təhvil vermək və sovet hökumətini tanımaq tələbini bildirən ultimatum elan etdilər. Ermənilər özlərini neytral apardılar. Onlar tatarların yanına öz nümayəndələrini göndərdilər və tam dəqiqliklə bildirdilər ki, bolşeviklərlə hesablaşmağa hazırlaşmırlar.

Buna baxmayaraq, 31.03 tarixində axşam ermənilər bolşeviklərlə birləşdilər və tatarlara qarşı çıxış etdilər. Hücum tamamilə gözlənilmədən başlandı. Tatarlarda 5 pulemyot var idı və heç bir artilleriya qurğusu yox idi, bolşeviklər və ermənilər gəmi artilleriyasından əlavə daha 12 topa malik idilər.

Tatarların nizami qoşunlarında 400-500 adam olduğu halda, artıq yanvar ayından ermənilərin bütöv bir polku var idi, bolşeviklərin sərəncamında isə 1,5 polk dayanırdı. Türk zabitlərinin təkmilləşdirilməmiş təşkili və idarəçiliyi onların məğlubiyyətinə səbəb oldu. Bundan əlavə, şaiyələr yayıldı ki, tatarlar hərbi dəstələrin yaradılması üçün ianə toplamaq istəmirlər.

Qırğın 31.03. tarixində başlandı və yalnız aprelin 3-də başa çatdı. Təqribən 12 000 nəfər öldürüldü. Evlər qismən yandırıldı və dağıdıldı.

Arxitekturanın şah əsəri olan “İsmailiyyə” binası tamamilə dağıdıldı. Qaçmaqla canını qurtara bilməyənlərin hamısı ermənilər tərəfindən öz mənzillərində öldürüldülər. Ermənilər müsəlman qadınların qarınlarını yırtırdılar. Körpə uşaqlara da rəhm etmirdilər. Bu iyrənc cinayətlər bolşeviklərlə (ruslar) ermənilər arasında müəyyən bir “soyuqluq” yaratdı.

Mənim tatar ziyalıları ilə söhbət etməyə yalnız kiçik bir imkanım oldu, çünki çoxları yalnız qaçmaqla (qismən Tiflisə) canlarını qurtarmışdılar.

Hazırda Bakı demək olar ki, xarici aləmdən tam təcrid olunmuşdur.

Erməni təcavüzü – dövlətin ideya məzmunudur. Bunu başa düşmək üçün öz varlığının mənasını müharibə, terror, yalan və işğalda görən bu qəribə respublikanın gerbinə baxmaq kifayətdir.

Adının nə dilçilik, nə də tarixi nöqteyi-nəzərdən Ermənistanla heç bir əlaqəsi olmayan Ağrı dağını (Ararat) bəziləri Nuh Gəmisinin lövbər saldığı yer sayır. Bu iddianın həqiqətə uyğunluğu və ya cəfəngiyyat olması haqda təfsilata varmağın burada nə vaxtı, nə də yeri deyildir. Lakin, ermənilər özlərini Nuh peyğəmbərin vərəsələri elan etdiyi səbəbindən, məsələ aqressiv və siyasi şəkil alır. Axı bu məkana dair əfsanə təsdiqlənəcəyi təqdirdə, həmin imtiyaz təkcə hayklara deyil, hamıya aid olmalıdır.




Bütün bunlardan başqa, Ağrı dağı birmənalı olaraq Türkiyə ərazisində yerləşir. Əgər polyaklar öz gerblərində Brandenburq Darvazalarını təsvir etsəydilər, almanlar buna necə reaksiya göstərərdilər. Yaxud Eyfel Qülləsi Bundestaqın iclas salonunu bəzəsəydi - fransızlar, və ya Tauer Körpüsü Fransanın üçrəngli bayrağını bəzəsəydi - ingilislər bunu necə qəbul edərdilər? Ağlasığmazdır, elə deyilmi? Bu gün artıq «Oraq və Çəkic» yoxdur. Və onları Nuh Gəmisi ilə Ağrı dağı müvəffəqiyyətlə əvəz edir.

| | | |
|---|---|---|
|  |  |  |
| **1918 – 1920** | **1922 – 1937** | **19.04.1992-dən sonra** |

**VİCDANA ÜNVANLANMIŞ SUAL:**

BƏZİ SİYASƏTÇİLƏR, ƏSLİNDƏ HEÇ BİR ANLAYIŞLARI OLMADIĞI HALDA, 1915-Cİ İL HADİSƏLƏRİNDƏN NECƏ DƏ HƏVƏSLƏ DANIŞIRLAR, LAKİN, **1946-CI İLDƏ** MÜHARİBƏDƏN SONRA YÜZ MİNLƏRLƏ SUDET ALMANLARININ ÖLDÜRÜLMƏSİNDƏN VƏ ÜÇ MİLYONUNUN DİDƏRGİN SALINMASINDAN DANIŞMIRLAR!





Cavab sadədir. Müəyyən dairələr nəyin bahasına olursa-olsun Türkiyənin Avropa Birliyinə qəbul edilməsinin qarşısını almaq istəyirlər və bu məqsədə çatmaq üçün heç bir vasitədən çəkinmirlər. Eyni zamanda, onlar özləri heç nə olmamış kimi **bu günə qədər qüvvədə olan Beneş Dekretlərinə sadəcə məhəl qoymurlar.**

Burada söhbət ümumiyyətlə ondan getmir ki, Türkiyə Avropa Birliyinə daxil olmaq istəyir və ya daxil olmalıdır. Bu tamamilə başqa mövzudur. Burada məsələ ikiüzlülükdə, o cümlədən həqiqi vəziyyəti bilmədən “1915-ci il” haqqında yalan danışmaqla Ankaranı günahlandırmaq istəyən xristian “xalq nümayəndələri”nin ikiüzlülüyündədir. **Lakin, onlar ermənilərin Azərbaycana qarşı bu günə qədər davam edən təcavüzü haqqında bir kəlmə belə söyləmirlər! On minlərlə tələfat və 1 milyon qaçqın! Bu gün. İndi!**




Bəs Türkiyə? İkinci Dünya Müharibəsində Türkiyə tam mühasirədə olmasına və Almaniyanın kütləvi təhdidlərinə baxmayaraq, on minlərlə qaçqını, o cümlədən Ernst Röyteri qəbul etdi və heç kimi ölkədən çıxarmadı. Nəticədə minnətdarlıq əvəzinə – böhtan.

Vyana, 20 iyun 1984-cü il: 1915-ci ilin faciəli hadisələrindən on illər sonra anadan olmuş, mühacir türk fəhlələrinin əmin-amanlığına cavabdeh, sevilməyə layiq, ailəsinə və işinə sədaqətli diplomat erməni terroristləri tərəfindən Türkiyə səfirliyi qarşısında qətlə yetirildi. Ərdoğan Ozen (1950 təv.) mənim dostum idi. O zamandan etibarən mən tarixi həqiqətə nail olmağa çalışıram ki, nəhayət sülh bərqərar olsun.



# Kəskin dönüş! Ermənilərin yalançı təbliğatına və təcavüzünə qarşı Azərbaycanlıların və türklərin müqaviməti təşkil edilir.



*Vyana, 2 aprel 2005-ci il – Azərbaycanlıların soyqırımı gününün ildönümündə Hayastan Respublikasının səfirliyi qarşısında nümayiş.*

1915-ci il hadisələri haqqında həqiqət - bu məkrli vətəndaş müharibəsi idi.

Musa Dağı hadisələri haqqında həqiqət və aldadılmış Frans Verfel.

Ermənilərin Azərbaycanlılara və türklərə qarşı törətdikləri kütləvi qətllər haqqında həqiqət.

Ermənilərin Azərbaycana qarşı bədnam işğalçı müharibəsi haqqında həqiqət.

Ermənilərin Türkiyəyə qarşı psixoloji və fiziki terroru haqqında həqiqət.

**Amerika Birləşmiş Ştatları prezidentinin bəyanatı:** mətbuat katibinin ofisi, 24 aprel 2005-ci il. *“Biz bundan sonra da Qarabağ münaqişəsinin sülh və etibarlı həlli yolunu axtarmağı öhdəmizə götürürük.… Mən sülh, tolerantlıq və barışıq naminə çalışan bütün insanları yüksək qiymətləndirirəm…”*

ABŞ–da erməni mafiyasının prezidentə təzyiq göstərmək və ona “soyqırım” sözünü qəbul etdirmək ümidləri özünü doğrultmadı. Əvəzində bunun əksi baş verdi. **Kəskin dönüş başlandı.**